

Əhsən Rəhmanlı

*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

# Ərəbin, farsın və başqasının deyil Ud musiqi aləti Azərbaycanındır!

# UD



2019-cu ildə vətənimizdə nəşr olunan “Ud çalğı aləti Azərbaycan qaynaqlarında (tədqiqat və lüğət)” adlı kitab haqqında fikir bildirməyi özümə borc bilirəm. Azərbaycan Respublikası Bakı Elm-Tədris Mərkəzinin Elmi Şurasının 26 may 2019-cu il tarixli, 06 saylı əmri ilə təsdiq edilmiş bu əsərin müəllifi sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadədir. Kitab əlimə düşən kimi mənə o qədər maraqlı gəldi ki, dərhal oxumağa başladım və sonrakı günlərə saxlamadım. Kitab Azərbaycanın müasir alətşünaslıq elminin bünövrəsini qoymuş unudulmaz alim, sənətkar, görkəmli orqanoloq Səadət Abdullayevanın əziz xatirəsinə ithaf olunur. Bu faktın özü də kitabın mənə doğmalaşmasına səbəb oldu. Axı Səadət xanım mənim də elmi rəhbərim idi. O da öz araşdırmalarında və kitablarında ud haqqında məlumat veirir.

A.Nəcəfzadənin haqqında danışdığım kitabını diqqətlə oxuduqca, əsərin yüksək dəyəri, eimi yükü, mahiyyəti və əsaslı, doğru tarixi faktlar özünü təsdiq edir. Burada ud çalğı alətinin yarandığı dövrdən bu günə qədər keçdiyi yol bütün dolğunluq və aydınlığı ilə öz əksini tapır. Tam şəkildə görünür ki, müəllif çox ciddi arşadırma işi apararaq zənginliklərə baş vurub. Tədqiqat və ağır zəhmət ortaya zəngin əsər qoyub. Əsər boyu A.Nəcəfzadə istər e.ə., istər orta əsrlər, istərsə də XIX-XX əsrlərin alimlərinin ud musiqi alətinin adı barədə fikirləri, acıqlamaları ilə tanış olmaq mümkündür. Kitabda orta əsrlərin klassik Azərbaycan şairlərinin uda həsr etdikləri əsərlərin adları çəkilir və şeirlərdən parçalar nümunə kimi verilir.

Abbasqulu müəllim pedaqoq, folklorçu, ifaçı olaraq səksən çalğı alətini səsləndirməyi bacaran biri olduğu üçün udu da dilləndirir və onun ifaçılıq xüsusiyyətlərini dərindən duyur. Müəllif ud çalğı alətinin bir ixtisas kimi tədrisinin labüd olması məsələsini qaldırır. Çox ciddi və aktual məsələdir. Bəli, vaxtdır, zamandır, əsrləri, qərinələri adlayıb yola çıxan, ulu xalqımızın ruhundan yoğrulub gələn uda daha mehriban, isti qucaq açılmalı, onun tədrisi vasitəsilə bu sənətin geniş şəkildə inkişafına nail olaraq gələcək nəsillərə ərməğan etməliyik. “Ud çalğı aləti Azərbaycan qaynaqlarında (tədqiqat və lüğət) adlı əsər yalnız ud ifaçıları, musiqişünaslar, folklorşünaslar üçün deyil, bütünlükdə müsiqi xadimləri, müəllinlər, insturmentalçılar və geniş oxucu üçün də maraqlı, zəngin bilgi mənbəyidir. Onu da qeyd etməliyik bu kitab zənqin tədqiqat işini, xeyli materialı özündə cəmləşdirərək əsl tədris vəsaitidir.

Kredo 2020.- 28 may.- S.16.